**2025/2026-cı tədris ili üçün ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinə qəbul olmuş tələbələrə aşağıdakı güzəştlər şamil edilir:**

**1. Məcburi köçkünlər**

16 yaşı tamam olmayan tələbələr valideynlərinin məcburi köçkünlüyünü təsdiq edən sənədi (portal çıxarışını),
16 yaşı tamam olanlar özünün məcburi köçkünlüyünü təsdiq edən sənədi (18 yaşı tamam olanlar-portal çıxarışını) təqdim etməlidirlər.

**2. Valideyn himayəsindən məhrum olmuş tələbələr (ödənişli əsaslarla əyani formada təhsil alan, mövcud qanunvericiliyə əsasən valideynlərini itirmiş , valideyn himayəsindən məhrum olmuş və ya ona bərabər tutulan 23 yaşınadək tələbələr nəzərdə tutulur)**

Hər iki valideyinini itirmiş tələbələr ölüm haqqında şəhadətnaməni təsdiq edən sənədi (notariat təsdiqi) təqdim etməlidirlər.
Valideynlərindən biri rəhmətə getmişsə, onun ölümü haqqında şəhadətnamə, digərinin I və ya II qrup əlilliyini təsdiq edən sənəd (portal çıxarışı) təqdim olunmalıdır.
Tələbə valideyn himayəsindən məhrum olunubsa, qəyyumun təyin olunması barədə məhkəmə qərarını təsdiq edən sənədi (notariat təsdiqi) təqdim etməlidir.

**3. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş vətəndaşın uşağı, eyni zamanda Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşın uşağı**

Ödənişli əsaslarla təhsil alan, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, hərbi əməliyyatlarla əlaqədar itkin düşmüş və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları müvafiq təsdiqləyici sənədi (tibbi-sosial ekspert komissiyasında sonuncu müayinəyə dair sənədi, forma 88) təqdim etməlidir.
Ailə üzvü şəhid olmuş tələbə şəhid ailəsi vəsiqəsini təqdim etməlidir.

**4. "Müharibə veteranı" adı almış tələbələr**

Ödənişli əsaslarla təhsil alan və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış tələbələr sənədlərini təqdim etməlidir.

**5. Sağlamlıq imkanları məhdud tələbələr**

Ödənişli əsaslarla təhsil alan, orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər müvafiq sənədi (tibbi-sosial ekspert komissiyasında sonuncu müayinəyə dair sənədi, forma 88) təqdim etməlidir.